**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/1** **12 iyun 2023-cü il**

**Auditor təşkilatlarında ƏL/TMM üzrə daxili nəzarət proqramının mövcudluğunun monitorinqi barədə**

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun və Auditorlar Palatası Şurasının "Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş" barədə 2021-ci il 18 iyun tarixli 331/6 nömrəli qərarının tələblərinə riayət olunmasına dair Auditorlar Palatasının Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqinin nəticəsi barədə təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqinin nəticəsinə dair təqdim edilmiş arayış nəzərə alınsın (əlavə olunur).
2. "Proqress Audit" MMC-nin direktoru Məmmədov Kamal Əlisahib oğluna tapşırılsın ki, iki həftə müddətində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin və Auditorlar Palatası Şurasının "Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş" barədə 2021-ci il 18 iyun tarixli 331/6 nömrəli qərarının tələblərinə əsasən ƏL/TMM üzrə daxili nəzarət proqramını təsdiq edərək Auditorlar Palatasına təqdim etsin, əks təqdirdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində inzibati tənbeh tədbiri görüləcəkdir.
3. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 17-ci "Peşə mənsubları/üzvləri tərəfindən Auditorlar Palatasının icrası məcburi olan təlimat və metodik göstərişlərinə, Palata Şurasının qərarlarına, Palata sədrinin əmr və sərəncamlarına əməl edilməməsi" bəndinə əsasən "Proqress Audit" MMC-nin direktoru Məmmədov Kamal Əlisahib oğluna auditor təşkilatında daxili nəzarət qaydalarını təşkil və təqdim etmədiyinə görə şəxsi işinə qeyd edilməklə ciddi xəbədarlıq elan edilsin.
4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) və Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrin müvafiq olaraq 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsinlər.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki:

5.1. üç gün müddətində bu qərarın mətninin xəbərdarlıq məktubu ilə birlikdə qeyd edilən auditor təşkilatına göndərilməsini təmin etsin;

5.2. auditor təşkilatında daxili nəzarət qaydasında monitorinqlərin aparılmasına dair plan-qrafiki hazırlayıb təsdiq edilməsi üçün Palatanın Şurasına təqdim etsin və aparılacaq monitorinqləri "Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş"ə uyğun vaxtında və keyfiyyətlə həyata keçirsin.

6. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Palatanın sədri** **Vahid Novruzov**